Hərbi vətənpərvərlik

# Vətən üçün ölənlər...

1941-1945-ci il Dünya müharibəsində Azərbaycan xalqının minlərlə igid oğlu və qızı misilsiz şücaət və əfsanəvi qəhrəmanlığı ilə seçilib. Vaxtilə bütün dünyanı sarsıdan bu müharibədə biz qələbə çaldıq. Mən buna bizim qələbə deyirəm. Çünki müharibəni idarə edən hərəkət texnikasının damarlarından Bakı nefti axırdı. Bəlkə də, doğma Bakımızın nefti olmasaydı, SSRİ-nin qələbəsi sual altında olardı.

Qədim Naxçıvan torpağı da amansız müharibənin ağrı-acısını igid övladlarının qanı və canı bahasına qələbəyə çevirdi. Mərd oğullarımız - Sovet İttifaqı Qəhrəmanları Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, əfsanəvi qəhrəman Əkbər Ağayev, partizan dəstəsinin komandiri Əli Babayev, üç şöhrət ordenli Rəhim Rəhimov, general-mayor Akim Abbasov, döyüşçü-şair İslam Səfərli bu qədim diyarın yetirməsidir. Hər tarixin öz yaddaşı, hər günün öz qəhrəmanı var.

Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Qulam oğlu Əkbərov 1917-ci ildə bizim Cəhri kəndində dünyaya göz açıb.

Kəndimizin köhnə məhəllələrindən birində bir həyət var. Çoxdan bina olunmuş evin divarına yazılı lövhə vurulub: "Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Qulam oğlu Əkbərov bu evdə yaşamışdır. Hər dəfə bu yazını görəndə gözlərim önündə kəndimizin mərkəzində yaşıllıqlar qoynunda abidəsi ucalan qəhrəman eloğlumuz canlanır.

İndi bu evdə qəhrəmanın 84 yaşlı bacısı Zərnişan nənə yaşayır. Eşidəndə ki Qəzənfər haqqında soruşmağa gəlmişəm, toranlaşmış gözləri doldu, dodaqları nanə yarpağı tək əsdi. Qardaşını bayatı ilə çağırdı:

Mən aşiq, bağın gəlib,  
Dövranın, çağın gəlib,  
Qardaş, harda qalmısan?  
Sənin qonağın gəlib.

Əzizim, yanar ağlar,  
Çiynimə qonar ağlar,  
Qardaşı ölən bacı  
Od tutar, yanar ağlar.

Allah, mənə dözüm ver,  
Qara qaşın, gözün ver,  
Məni suala tutublar,  
Gəl, cavabı özün ver.

Mən aşiq o yolları,  
Meh döyər o yolları,  
Nə qədər canım sağdı  
Gözlərəm o yolları.

Birnəfəsə söylədi Zərnişan nənə bu bayatıları. Sanki sinəsindəki yanğını qardaşına ünvanladığı bu bayatılarla sərinlətmək, söndürmək istəyirdi. Gözlərini silə-silə sözünə davam elədi bu ağbirçək ana:

-Qəzən demə, dilli-dilavər, ağıllı uşaq idi. Müharibəyə könüllü getmişdi. Təzəcə evlənmişdi. Balaca Həsənin üzünü doyunca görmədi. Nə bilim, ay bala, indi Həsən də yoxdu. Övladları - Aygün, Mahir, bir də babasının adını daşıyan Qəzənfər Bakıya köçüb getdilər. Müharibəyə gedəndə 24 yaşı vardı. Müəllimliyə 1il idi ki, başlamışdı. Arzuları gözündə qaldı. 27 yaşında cavan ikən vətən yolunda qurban getdi. Hər dəfə onun haqqında kimsə soruşmağa gələndə tüklərim başımdan qalxır. Elə bilirəm, Qəzən bu evə yenidən qayıdıb, özü də 24 yaşlı cavan bir oğlan kimi.

- Ürəyini sıxma, Zərnişan nənə, elə bizim də arzumuz Qəzənfər kimi qəhrəman oğulları xalqımızın qəlbində əbədi yaşatmaqdır.

Döyüş yolu Ukrayna, Belarusiya cəbhələrindən keçən Qəzənfər hələ müharibənin birinci ilində göstərdiyi igidliyə görə "Qırmızı Ulduz" ordeni, sonra isə "İgidliyə görə" medalı ilə təltif olunmuşdu. Ömrünün qəhrəmanlıq nəğməsinin son akkordlarını isə Belarusiyanın Volomin şəhəri uğrunda gedən döyüşlərdə vurdu.

Baş serjant Qəzənfər Əkbərovun komandanlıq etdiyi tankvuran topçu bölüyü Volomin şəhərinin qərbində müdafiədə dayanmışdı. Alman faşistləri çoxlu tank və canlı qüvvə ilə qəflətən hücuma keçdilər... Qeyri-bərabər döyüşdə Azərbaycan xalqının igid oğlu düşmənin 4 tankını, 60 nəfərdən çox əsgər və zabitini məhv etdi. O, əsil qəhrəmanlıq göstərərək həlak oldu.

Böyük Vətən müharibəsi cəbhəsində göstərdiyi misilsiz şücaət və qəhrəmanlığa görə Qəzənfər Qulam oğlu Əkbərova SSRİ Ali Soveti Rəyasət Heyətinin 26 oktyabr 1944-cü il fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Zərnişan nənənin bayatısına qulaq asanda fikrimdə Qəzənfərin dili ilə ona cavab verirdim:

Əzizim, zər nişana,  
Qalıbdı zər nişana,  
Siz deyin ağlamasın  
O bacım Zərnişana.

İgid elin başıyam,  
Torpağıyam, daşıyam  
İndi tək sənin deyil,  
Vətənin qardaşıyam.

Sil gözünün yaşını,  
Demə ki gəlməz olur,  
Vətən üçün ölənlər  
Əbədi ölməz olur.

Kəndimizdə igid eloğlumuzun adına məktəb var. Məktəbdə Q.Əkbərovun həyatına, döyüş yoluna həsr olunmuş guşə açılıb.

Bu il faşizm üzərində qələbənin 60 ili tamam olur. Bu münasibətlə Cəhri kənd mərkəzi uşaq kitabxanasında "Bizim böyük Qələbə-60" başlığı altında foto-sərgi və kitab sərgisi təşkil olunur. Qələbəyə həsr olunmuş tədbirlərimiz davam edir. Biz oxucularla Böyük Vətən müharibəsi iştirakçılarının görüşündən ibarət ədəbi-bədii gecə keçirməyi nəzərdə tutmuşuq.

Bütün Azərbaycan xalqının bir arzusu var. İnanırıq ki, tezliklə belə bir qələbə sevincini Şuşada, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Ağdamda, Füzulidə və bütün işğal olunmuş torpaqlarımızı erməni quldurlarından azad edəndə qeyd edəcəyik. Buna bizim həm haqqımız çatır, həm də gücümüz. Vətənin Qəzənfər kimi oğulları bu qələbəni qazanmağa qadirdir.

**Təranə ƏLİYEVA,**

**Babək rayonu Cəhri kənd mərkəzi uşaq kitabxanasının müdiri**